Daim - çox istəsəkdə az nail ola bildiyimiz durum - Namazda xuşu..!

Bismilləh.
Əlhəmdulilləhi vəhdəh. vəs-Salətu, vəs-sələmu alə mən lə nəbiyyə bə`dəh.
əs-Sələmu aleykum və rahmətullahi və bərakətuhu.

• "..Hər şeyi unudaraq ruhən və cismən yalnız Allah qarşısında kiçilməyə, Ona itaət edib boyun əyməyə "Xuşu" deyilir.." (1)

• Allah Rasulu (səlləllahu aleyhi və səlləm) buyurmuşdur :
"..Bu ümmətdən ən əvvəl aradan qaldırılacaq keyfiyyət mutilik (xuşu) olacaq, hətta bu zaman bir nəfər də olsun Allah qarşı muti olan insan görməyəcəksən.." (2)

• Əbu Huzeyfə (radiAllahu anhu) :
"..Siz dininizdən ilk olaraq xuşunu, son olaraq isə namazı itirəcəksiniz. Hətta elə namaz qılanlar da olacaqdır ki, bunun onlara heç bir faydası toxunmayacaq. Məscidə daxil olarkən orada heç bir mutini görməyəcəyin gün bir o qədər də uzaqda deyil.." (3)

Şübhəsiz ki, əksəriyyətimiz bu cür namaz qılanların şahidi olmuşuq məscidlərdə. Ümumən hər əzanın namazdan öz payı, öz haqqı var : Gözün haqqı səcdə yerinə baxmaq, əllərin haqqı sinə üzərində bağlanması, belin və çiyinlərin haqqı onların düz tutulması, ümumən vücudun haqqı qibləyə yönəlmək və.s Bunların əsası təşkil edən isə Qəlbdir ki, onun da haqqı, qəlbi xuşu pərdəsinə bürüməkdir. Allaha sevgi ilə, qorxu ilə, ümid ilə bağlanmaqdır, özünü Rəbbinin hüzurunda haqqı ilə hiss etməkdir ki, bir çoxumuz bundan məhrumuq. Allah bizləri islah etsin..! Əmin

Namazda xuşunu əldə etmə vasitələrindən bəziləri bunlardır :

•» - Dəstnamaz alarkən əməlinin fəzilətini düşünmək.
•» - Xuşuya dəstnamazdan başlamaq və Kimin hüzuruna çıxdığını (bacardığın qədər) dərk etmək.
•» - Allahın əzəmətini, qüdrətini, rəhmətini - eləcə də, Onun sənə bəxş etdiyi nemətlərini (və bəxş edəcək nemətlərini) düşünmək.
•» - İbadəti edərkən, zatən bunun üçün (ibadət üçün) yaradıldığına bir daha təslim olmaq.
•» - Niyyətini ixlasnan edib, əcrini yalnız Allahdan gözləmək.
•» - Namazın sözlərini öz dilinə tərcümədə söz-bə-söz əzbər bilmək - Təkbirdən Təslimədək.
•» - Həmən sözlərin fəzilətinə dair Sunnədən gələn xəbərlərə baxmaq.
•» - Dil ilə dediyini Qəlb ilə dərk etmək.
•» - Allah Subhənə və Təalənin hal hazırda səni gördüyünə və qəlbindəkilərdən xəbərdar olduğuna yəqin olmaq.
•» - Ölümü xatırlamaq.
•» - Qıldığın namazın Cənnəti qazanıb Cəhənnəmdən qorunmağında böyük əhəmiyyət kəsb etdiyini unutmamaq..!
•» - Və ən önəmlisi : Qıldığın namazı sonuncu namazın kimi qılmaq. Sanki, salamlardan dərhal sonra sənin sorğu-sual başlanacaq.

• Allah Rasulu (səlləllahu aleyhi və səlləm) buyurmuşdur :
"..Namaz qılarkən ölümü xatırla. Çünki insan namaz qılarkən ölümü xatırlaması onun namazını gözəlləşdirməsi üçün ən layiqli üsuldur və növbəti namazı qılmağa əmin olmayan insan kimi namaz qıl.." (4)

• Allah Rasulu (səlləllahu aleyhi və səlləm) Əbu Əyyub əl-Ənsariyə (radiAllahu anhu) olan

vəsiyyətində deyilir :
"..Namaz qılarkən sanki son namazını qılırsanmış kimi qıl.." (5)

Allah subhənə və təalə bizi, Onun hüzurunda muti olanlardan etsin. Əmin
Allah subhənə və təalə bizi, İbadətlərimizdə ixlaslı, Əməllərimizdə hikmətli və əxlaqlı olanlardan etsin. Əmin
Allah subhənə və təalə bizi, Gizlində də, aşkarda da Ondan qorxanlardan etsin. Əmin
Allah subhənə və təalə bizi, İman gətirdikdən sonra mürtəd olub dindən çıxmaqdan qorusun. Əmin
Allah subhənə və təalə bizi, Ona haqqı ilə ibadət edənlərdən etsin. Əmin
Allah subhənə və təalə bizə, Haqqı haqq, batili batil kimi göstərsin. Əmin
Allah subhənə və təalə bizi, Şirk və əhlindən, kufr və əhlindən, fisq və əhlindən, bidət və əhlindən, şər və əhlindən, fitnə və əhlindən, cəhalət və əhlindən qorusun. Əmin

vəl-Həmdulilləhi Rabbi-l-aləmin,
və salləllahu alə nəbiyyinə Muhəmmədin və alə əlihi və sahbihi əcməin.
vəs-sələm aleykum və rahmətullahi və bərakətuhu.

® Shamil Abdul-Jaleel

---

1 - İbn əl-Qayyim, "Mədaricus-Salikin", 1/520
2 - Heysəmi, "Məcmu əz-Zəvaid", 2-136, Təbərani, "Mucəm əl-Kəbir"-də həsən isnadla rəvayət etmiş : "Səhih ət-Tərğib, hədis 543, səhihdir.
3 - İbn əl-Qayyim, "Mədaricus-Salikin", 1/521
4 - əl-Əlbani, "Silsilətus-sahih", 1421 ; əs-Suyuti rəvayət etmiş. İbn Həcər hədisə həsən demişdir. Deyləmi, "Musnəd" 1/431
5 - Əhməd, 2Musnəd" 5/412, "Səhih əl-Cəmi`i", 742.